# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)



*TƏYYAR SALAMOĞLU*

### I YAZI

**Giriş əvəzinə, yaxud Mahirə Nağıqızı poeziyasına ümumi bir baxış**

Ədəbi prosesin hərəkətində şeir, bir qayda olaraq, öndə gedir. Bu hal müstəqillik dövrü üçün də səciyyəvidir. Müstəqillik illərində sənətin zamanla səsləşməsinə təkan verən şairlərdən biri də Mahirə Nağıqızıdır. Tədqiqatlarda M.Nağıqızının hələ tələbə ikən - keçən əsrin 80-ci illərindən poetik nümunələrlə çıxış etdiyi vurğulanır. Düşünürük ki, keçən əsrin son onillikləri şairənin poetik potensialını bu və ya digər dərəcədə ortaya qoysa da, ümumən, ilk qələm təcrübələrini ərsəyə gətirməkdən o tərəfə keçə bilmir. Fikrimizcə, sözün geniş mənasında, çağdaş ədəbi prosesə Mahirə Nağıqızı 2000-ci illərdə qoşulur, əsrin ikinci onilliyi isə şeirlərində işlətdiyi "Mahirə" və "Nağıqızı" təxəllüslərinin özünütəsdiqi ilə yadda qalır. "Yeni əsrin ibtidası"nda M.Nağıqızı məhsuldar bir yaradıcılıq yolu keçir. Tədqiqatlarda da vurğulanır, açıq ensiklopediya məlumatlarında da əsrimizin ilk onilliklərində onun on dörd şeir kitabının nəşr olunması haqqında məlumat verilir. "Mənim anam" (2006) şairənin ilk şeirlər kitabıdır. Bunun ardınca o, "Su at dalımca, ana" (2006), "Ana sevgisindən doğan nəğmələr" (2008), "Yaşadacaq anam məni" (2009), "Ömrün çıraqdır sənin" (2010), "Analı dünyam" (2015), "Haqqa çağıran səs" (2015), "Ruhuna beşiksə, tanı, Vətəndir" (2017), "Salam olsun" (2020), "Dilimiz varlığımızdır" (2021) və b. kitablarının yalnız adlarına nüfuzla belə bir qənaəti qətiyyətlə ümumiləşdirmək olar ki, əsrimizin birinci onilliyində Mahirənin poetik sözü onun "analı dünyası"nın orbitində fırlanır. Başqa sözlə, şairə dünyaya fərdi yaşantılarının prizmasından baxır. Əsrin ilk onilliyində onun cəmiyyət həyatına münasibəti "analı dünyası"nın metaforası, simvolikasında poetikləşir. Burada çox ciddi bir qanunauyğunluq var. Şeir həqiqi yaşantının məhsuludursa, bir qadın şairənin duyğu və düşüncələrini "analı dünyası"ndan keçirməsi tam təbii olmaqla bərabər, həm də poetik yaşantılarındakı səmimiliyin ifadəsidir. Ədəbiyyatşünaslığımızda məşhur bir fraza var: İ.Hüseynovun ədəbiyyata gəlişi "Anadil ötən yerdə" oçerki ilə başlanır. Oçerki oxuyan M.Hüseyn ona deyir: "Səni tənbeh eləyəcəm. Oçerkdə niyə öz atandan yazmısan? İ.Hüseynov cavab verir: "Çünki atamı yaxşı tanıyıram" (A.Hüseynov. Nəsr və zaman. Bakı. Yazıçı, 1980, s.33).

Keçən əsrin 50-ci illərinin ortalarından ədəbiyyatımızda başlanan yeni keyfiyyət mərhələsində sənətin həyat həqiqətinə yaxınlaşması prosesinin, onu ifadə cəhdinin nümunəsi kimi İ.Hüseynovun M.Hüseynə verdiyi cavabı ədəbi tənqidimiz "yeni ədəbi mövqe", "yaradıcılıq kredosu" kimi qiymətləndirirdi (A.Hüseynov. Göstərilən əsəri. s.33).

İ.Hüseynovun həyatı bədii əksetdirmədə təhtəlşüur olaraq seçdiyi bu yol ona görə bu cür yüksək qiymətləndirilirdi ki, 50-ci illərdən sonra ədəbi prosesin həyat həqiqətinə sədaqət hissinin nəzəri postulatı kimi qəbul edilirdi.

Ümumiyyətlə, ədəbiyyata səmimi duyğularla gələn bütün şairlərin yaradıcılığında cəmiyyət həyatına sosial hadisələr prizmasından baxış nisbətən sonrakı mərhələlərdə ya baş verir, ya da güclənirdi. Xatırlayaq ki, 60-70-ci illərdə ədəbi tənqid Musa Yaqub kimi iqtidarlı bir şairi "ifrat təbiət mühiti"ndə qalmaqda, ictimai həyata nüfuzun zəifliyi baxımından tənqid edirdi. Ancaq biz, 80-ci illərdə M.Yaqub yaradıcılığında nəinki sosial, hətta siyasi həyat probelmlərinə dərin nüfuz hallarını, onları fəlsəfi ümumiləşdirməyə qədər qalxa bilən poetik məqamların ardıcıllığını müşahidə edirik.

Ədəbi tarixi prosesin hərəkətində müşahidə olunan bütün bu cəhətlər onu göstərir ki, həqiqi sənətkar "fərdi mən"in dünyasından ictimai-siyasi problemlərə, hətta insanın və cəmiyyətin milli və bəşəri dərkinə, Ç.Aytmatovun B.Vahabzadə ilə bağlı bir fikrini iqtibas etsək, deyə bilərik ki, "körpü- fikirlər", "körpü-obrazlar atır". Sənətkarın təcrübəsi, həyati müşahidələri dərinləşdikcə bu "körpü-fikirlər"in, "körpü-obrazlar"ın miqyası genişlənir. Bu miqyasın genişlənməsində təbii ki, daha bir amilin də həlledici rolu var: zamanın taleyüklü problemləri. Mahirə Nağıqızının da yaradıcılığı bu qanunauyğunluğu əks etdirir. Zaman taleyüklü problemlərlə daha sərt şəkildə üz-üzə qalanda sənətkar yaradıcılığının da yeni bir mərhələyə keçidi baş verir. Lirik "mən"in duyğu və düşüncələrində sənətkarın vətəndaşlıq mövqeyi daha çox aktivləşir. Sanki sənətkarın varlığında və düşüncəsində bir təlddülat baş verir. O, psixoloji cəhətdən özünü millətinin və dövlətinin üzləşdiyi ağır sınaqların əhatəsində görür. Artıq bu zaman ictimai və siyasi baxışlar poetik düşüncəyə, sanki büsbütün hakim kəsilir.

Zamanın "taleyüklü problemlərə hamiləliyi" (Mürşüd Məmmədov) Mahirə Nağıqızının yaradıcılığında ikinci mərhələni yaradır. Düşünürük ki, "Haqqa çağıran səs" kitabında, xüsusən "Ruhuna beşiksə, tanı, Vətəndir", "Salam olsun", "Dilimiz varlığımızdır" kitablarında toplanan şeirləri şairənin yaradıcılığının ikinci mərhələyə - yeni yüksəliş mərhələsinə keçidindən soraq verir. Bu kitablarda toplanan şeirlərdə lirik mən öz fərdi dünyasından çıxıb ictimai düşüncə qəhrəmanına çevrilir.

### II YAZI

**Mahirə şeiri:Fərdi yaşantılardan sosial-siyasi proseslərin inikasına keçid estetik keyfiyyət kimi.**

Mahirə Nağıqızının poetik dünyası ilə bağlı ədəbi tənqiddə səslənən bəzi fikirlərə münasibət bildirmək ehtiyacı yaranır. Q.Bayramov yazır: "...Mahirə Nağıqızının bütün bədii yaradıcılığı ilə tanış olanda aşkar görsənir ki, onun poeziyasının baş, əsas, kordinal obrazı Ana obrazıdır" (M.Nağıqızı. Onun daş nağılı. Bakı. ADPU nəşr.,2020. s.397). Başqa sözlə, tənqidçi "Nazlı anasına bəslədiyi fövqəl övlad məhəbbətini" bu şeirlərin leytmotivi hesab edir (s.397). Əlbəttə, anasına bəslədiyi, "fövqəl övlad məhəbbəti" Mahirənin yaradıcılığından qırmızı bir xətlə keçir və bu mənada tənqidçi ilə razılaşmaq lazımdır. Lakin məsələnin başqa bir tərəfinə də diqqət yetirmək zərurəti var. Məsələ burasındadır ki, Mahirənin yaradıcılığına konseptual baxış tənqidçinin fikrini birmənalı həqiqət kimi qəbul etməyə imkan vermir və polemika üçün əsas yaradır. Biz bir qədər başqa cür düşünürük. Əsərlərinin nəşr xronologiyasını nəzərə alsaq, şairənin özünün səciyyəvi keyfiyyət kimi önə çıxardığı və "analı dünyam" adlandırdığı şeirlər onun yaradıcılığının birinci mərhələsi üçün səciyyəvi görünür. Diqqətimizi bir cəhət də cəlb edir ki, tənqidçi fikrinin davamında Ana obrazı ilə Vətən obrazının üzvi bağlılığından söhbət açır və maraqlı bir fikir irəli sürür: "İlhamın və istedadın magik gücü bu obrazı (Ana obrazını - T.S.) daha geniş məna sferasına daxil edir - göz önündə ümumi Ana Vətən obrazı prioritet olaraq canlanır, aktual mahiyyət kəsb edir" (s.397-398). Sonuncu mülahizə Mahirənin bədii mətn arsenalına bütövlükdə nüfuzdan doğur, poetik fikrin inkişaf dinamikasını dəqiq müşahidədən yaranır. Q.Bayramov bu "inkişaf dinamikası"nı müşahidəsi ilə, əslində sənətkarın yaradıcılığındakı keyfiyyət dəyişməsini qeydə alır. Ona görə də sənətkarın "poeziyasının baş, əsas, kordinal obrazı"na - "Ana obrazı"na paralel ikinci bir obrazı da - Vətən obrazını da fərqləndirmək zərurəti yaranır. Necə deyərlər, Ana obrazından Vətən obrazına keçid prosesi Mahirə yaradıcılığını sənətkarın vətəndaşlıq mövqeyinin ifadəsi prizmasından qiymətləndirməyə əsas olur, şairənin şeirinin poetik tutumunu və bütövlüyünü təsəvvür etməyə imkan verir. Bu zaman tarixilik prinsipinin elmi təhlil arsenalına daxil olması zərurəti yaranır. Çünki sənətkarın vətəndaşlıq mövqeyini yalnız tarixilik prinsipinin estetik ifadəsi ilə aşkarlamaq olar.

Yaxşı cəhətdir ki, onun yaradıcılığının ikinci mərhələsində Vətən mövzusunun aparıcı leytmotivə çevrilməsi tənqidin diqqətini çəkməkdədir. Tənqid Mahirənin "Salam olsun" kitabında toplanmış şeirlərdən "yeniyetmələrdən və gənclərdən, ümumiyyətlə, oxuculardan ibarət auditoriya" üçün "hərbi-vətənpərvərlik mövzusunda" yazılmış əsərlər kimi bəhs açır, eyni zamanda, şairənin bu kitabı üçün müəyyənləşən təyinatı ən yaxın ədəbiyyat tariximizdə bir "ilk"ə imza atılması mövqeyindən dəyərləndirir. Məhz həmin "ilk" Mahirə şeirinin özünün ikinci mərhələsini yaşadığını sübut edən ədəbi faktorlarlardan biri kimi mənalana bilər. Hesab edirik ki, "Salam olsun" kitabına yazdığı "Ön söz"ü müəllifin "Vətən üçün çırpınan misralar" adlandırması da yeni mərhələdə Mahirə şeirinin ideya-estetik təyinatının müəyyənləşdirilməsi ilə bağlı tənqidin həssas müşahidələrini önə çıxarır. Kitabın mətn materialının bütövlükdə təlqin etdiyi ideya istiqamətindən çıxış edən və bu ideya istiqamətini "bir qərinəlik müddətdə (Birinci Qarabağ savaşından keçən zamanda - T.S.) yetişən Azərbaycan gəncliyinin sinəsində cücərərək yetişən, böyüyən Vətən sevgisi"nin formalaşmasındakı rolundan danışan tənqidçi tam doğru bir qənaətə gəlir: "Hesab edirik ki, ədəbiyyatın başlıca vəzifələrindən biri o dəyərlər uğrunda çarpışmasıdır və bu istəyi şairin "Salam olsun"unda görürük" (M.Nağıqızı. Salam olsun.Bakı.ADPU nəşr., 2020. s.4).

Əslində tənqidçi dünya ədəbiyyatında bir sistem halında özünü XIX əsr romantiklərinin yaradıcılığında göstərən, elə həmin əsrin tənqidi realistlərinin də yaradıcılığında ardıcıl olaraq reallaşdırılan tarixilik prinsipindən, hər bir xalqın ədəbiyyatının mənsub olduğu millətin taleyi uğrunda mübarizəni baş məqsədə çevirməsindən və bu prosesin bizim ədəbiyyatımız üçün də bir qanunauyğunluq olduğunu görmək və dəyrələndirmək zərurətindən söhbət açır. Tənqidçi milli ədəbiyyatımızın tarixində bu prosesin M.F.Axundovun fəaliyyətindən başlamasını, poetik normalara onun tam fərqli yanaşmalarının Qərb romantiklərinin ədəbi inkişafa yanaşmaları ilə üst-üstə düşən cəhətlərini qabardanda ədəbi hərəkatın ancaq estetik zövqə hesablanmadığı zamanın gəldiyi, bu anlayışın dəyərinin hər bir sənətkarın mənsub olduğu millətin tərəqqi və inkişafına verdiyi töhfələrlə dəyərləndirilməsi məsələsini önə çəkir.

*(Davamı 7-ci səhifədə)*

# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)

*(Əvvəli 6-ci səhifədə)*

Milli həyatımızda yaşanan taleyüklü probelmlər kontekstində onun aşağıdakı mülahizələri təkcə özünün fikirlərinin deyil, həm də istinad nöqtəsi kimi götürdüyü mətn materialının - Mahirə şeirinin müasirliyini xüsusi vurğu altına salmaq məqsədi daşıyır: "Poeziya özündə sosial yükün ağırlığını daşımırsa, ən azından, o yükü çəkmək gücündə olan insanları öz ətrafında toplamırsa, onu başqa adla çağırmaq lazımdır" (s.15). Bu, bütövlükdə çağdaş ədəbi prosesi tarixilik prinsipi ilə qiymətləndirmək zərurətindən çıxışdır.

Bu prinsipin millət uğrunda mübarizə idealını önə çəkməsinin metodoloji əsaslarını isə ən mükəmməl bir şəkildə müstəqilliyimizin böyük sınaqlar qarşısında qaldığı zamanda Ümummilli liderimiz Heydər Əliyev formulə etmişdir. Ümummilli lider Azərbaycan yazıçılarının X qurultayında (1997-ci il) müstəqillik dövrünün milli ədəbiyyat strategiyasını müəyyənləşdirərək sənət adamlarının qarşısına belə bir vəzifə qoyurdu: "...Siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik, azadlıq şəraitində nə cür istəyirsinizsə, o cür də yazın... Ancaq hesab edirəm ki, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz, bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə, vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu, çox vacibdir, çox lazımdır" (Heydər Əliyev və mədəniyyət. Üç clddə.II cild. Bakı. Nurlar NPM., s.10).

Bu gün 30 il ermeni işğalı altında qalan torpaqlarımız azad olunmuş və biz tarixi bir qələbəyə imza atmışıq, son iki yüz ilin ən möhtəşəm şərəf tarixini yazmağa nail olmuşuq. Səbəblər haqqında düşünəndə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Şuşada hərbçilər qarşısındakı çıxışında vurğuladığı bir məqama xüsusi diqqət yetirmək lazım gəlir: "Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik".

Ümummilli Liderin tövsiyyələri, Ali Baş Komandanın qələbədən sonra qələbəyə gətirib çıxaran amillər haqqında mülahizələri ədəbiyyatımızın işğaldan keçən müddət ərzində qarşısına qoyduğu missiyanı ləyaqətlə yerinə yetirməsi haqqında düşünməyə əsas verir. M.Nağıqızının yaradıcılığının ikinci mərhələsi, xüsusən onun "Salam olsun" kitabında toplanan şeirləri Ulu öndərin tövsiyyələrinin yerinə yetirilməsi, Ali Baş Komandanımızın millətimizin, xüsusən gənclərin Vətən sevgisinin böyüklüyü, hüdudsuzluğu haqqında nikbin qənaətləri fonunda itirilmiş torpaqlarımız uğrunda ədəbi-bədii mücadilənin səmərəli nəticələr verməsi qənaətinə gəlməyə əsas verir. "Salam olsun" bu mücadilə hərəkatından doğulmuş kitabdır. Bəlkə də, "əsərdir" demək daha doğru olar. Çünki, bu kitabda toplanmış şeirlər qələbəyə gedən yolu təsvir və tərənnüm edən mükəmməl poetik sistemə malik kamil bir dastan kimi oxunur. Kitabın "dastan" kimi oxunması tənqidi düşüncədə də vurğulanır. Doğrudur, dastan ruhu bəzi məqamlarda ayrı-ayrı əsərlərə şamil edilərək önə çəkilir. "On söz"ün müəllifi "Oxuyun" şeirini nəzərdə tutaraq yazır: "Bu odur - bir xalqın keçib getdiyi yolların dastanı, o dastan ki, xalqın doğuluşundan bu günə qədər yazılıb və yazılmaqda davam edəcək" (s.32). Onun bu kitabda toplanan şeirləri "əbədiyyət nəğmələri" adlandırmasında da (s.35) xalq qəhrəmanlıq dastanlarından çıxış mövqeyi aşkar görünür.

Fikrimizcə, Mahirənin bu kitabda toplanan şeirləri bir qəhrəmanlıq dastanının türküləri kimi oxunur. Bu dastanın "qəlbimizdə oxunan türkülərlə yarandığı"nı şairə özü də "Al bayrağım" şeirində etiraf edir. Tənqidin bu istiqamətdəki vurğuladıqlarını da, Mahirənin etirafını da gözardı etsək belə, kitabda toplanan şeirləri sanki əli qopuzlu ozanın oxuduqları kimi təsəvvür etməmək mümkün deyil. Çünki bu şeirlərin hər biri, Dədə ozanın zümzümələri kimi oxunur. Ruh özan ruhu, deyim, ifadə tərzi hər an onun repertuarındakı türküləri xatırladır. "Özanların əsasən qəhrəmanlıq, bahadırlıq, təbliğ-tərənnüm edən mahnılar oxuması, oğuz igidlərinin şücaətindən, döyüş hünərlərindən bəhs edən dastanlar - oğuznamələr düzüb-qoşması və söyləməsi"ni ((Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild. Bakı. Elm, 2004. s.376) nəzərə alsaq, xalqımızı Vətən torpaqları uğrunda qəhrəmanlıq mübarizəsinə təşviq edən, bu yolda sonsuz qəhrəmanlıq göstərənlərin şücaətlərini alqışlayan şeirlərdə "Oğuznamə" ruhunu görmək mümkündür.



Bu məqamda belə bir suala cavab vermək lazım gəlir ki, kitabda qəhrəmanlıq dastanının - epos ruhunun ifadəsinə material verən hadisələrin təsvir-tərənnümü varmı? Ozan ruhlu sənətkar hansı cahanşümul hadisəni dastan predmetinə çevirir? Belinskinin eposun yaranması üçün təkanverici amil rolunda "xalqın (hələ əsatir halında olan) tarixində yeni bir dövr təşkil edən və onun bütün sonrakı həyatına təsir edən ümumxalq ölçüsündə olan bir mühariba"dən (V.Q.Belinski. Seçilmiş məqalələr. Bakı. Uşaqgəncnəşr., 1948. s. 49) danışdığını xatırlasaq, onu da xatırlasaq ki, "Salam olsun" kitabı müstəqillik əldə etdiyimiz gündən, xüsusən I Qarabağ savaşından II Qarabağ müharibəsinə qədər xalqımızın keçdiyi əzablı yoldan, sonsuz ağrı və acılarımızdan, II Qarabağ savaşında əldə etdiyimiz analoqu olmayan qələbədən, millət övladlarının əfsanəyə çevrilən igidliklərindən, Qələbəyə gedən yolun anbaan izlənilməsindən, , Qələbəmizin tərənnümündən, poetik sözün yaddaşında tarixləşməsindən, xalqın qan yaddaşına hopdurulmasından bəhs edir, onda təsvir-tərənnüm obyektinin qəhrəmanlıq dastanına material verməsinə heç bir şübhə yeri qalmır. Bəli, söhbət Mahirənin kitabının təkcə "hərbi-vətənpərvərlik ruhundakı şeirləri" təqdimindən yox, həm də xalqın qəhrəmanlıq tarixinin bütöv bir mərhələsini dastan ruhu, dastan poetikası ilə sistemli ifadəsindən gedir. Söhbət konkret tarixi bir mərhələdə xalqın göstərdiyi qəhrəmanlıq tarixinin poetik salnaməsini yaratmaqdan gedir. "Salam olsun" kitabında belə bir salnamə ruhu varmı? Axı, kitab şairənin müxtəlif illərdə yazılmış şeirlərinin xronoloji ardıcıllıq gözlənilmədən təqdimi təsiri bağışlayır. Kitabdakı şeirləri düzülüş ardıcıllığı ilə oxusaq (və qavrasaq), bizi bu topluda izlənən əsl şair məqsəd və məramına aparmayacaq. Sənətkarın vətəndaşlıq mövqeyinin tarixilik prinsipi əsasında dərkinə imkan verməyəcək.

"Salam olsun" kitabındakı sənətkar məramının dərki, toplunu "başlanığıcı, ortası və sonu olan" olan dastan süjeti kimi qavramaq üçün burda toplanan şeirlərin ilk olaraq bütöv bir mətn kimi dərkinə, sonra da bədii əsər kimi "oxu"suna xüsusi ehtiyac var. Bu məqamda mətnə münasibətdə postmodernizmin estetik prinsipləri köməyimizə gəlir. Elmi ədəbiyyatda da göstərildiyi kimi dastan janrı "şeirlə nəsrin növbələşməsi prinsipinə" əsaslanır (Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild. s.597). "Salam olsun" kitabında isə, belə deyək ki, dastanın şeir hissələri var, nəsr hissəsi - hadisələrin təhkiyə olunan hissəsi yoxdur. Postmodernizmin estetik prinsipləri bizə bir qədər fərqli düşünmək imkanı verir (Bizim "Salam olsun" kitabında toplanan şeirləri postmodernist əsər kimi təqdim etmək fikrimiz yoxdur. Onun nəzəriyyəsindən gələn bəzi prinsipləri bu kitabda toplanan əsərlərin təhlilinə tətbiqi isə mümkün hesab edirik. Çünki "Salam olsun" kitabı postmodernistcəsinə yazılmasa da, postmodernizm zamanında yazılmışdır. Bu cəhət isə onda postmodernist estetik prinsiplər axtarmaq şansını gerçəkləşdirir): "Postmodernistlərin fikrincə, mətn heç vaxt avtonom şəkildə mövcud olmur. Əslində, postmodernizmin mətnə bu konseptual münasibətinin əsası M.Baxtin tərəfindən qoyulmuşdur; tədqiqatçı F.Dostoyevskinin "polifonik" (çoxsəsli) roman konsepsiyasını təhlil edərkən onun əsərlərindəki mətnlərin ondan əvvəl və onunla eyni zamanda mövcud olan mətnlərlə dialoqa girməsi fenomenini üzə çıxarmışdır" (Q.Quliyev. Postmodernizm. "Azərbaycan" jurn., 2005, №9.s.180).

Yuxarıda "Salam olsun" kitabına münasibətdə tənqidin dastan poetikasını bu kitabda toplanan şeirlər üçün səciyyəvi hesab etdiyini vurğulamışdıq. Bu cür yanaşma təkcə bədii mətnlərin estetikasının təlqinlərindən irəli gəlmir, həm də müəllifin ayrı-ayrı şeirlərində işarələnən məqamlardan güc alır. "Son döyüşə hazır ol" şeirindəki aşağıdakı misralara diqqət yetirək:

Hədəfin düşmən olsun, o silahlı yalquzaq,
Get yolun açıq olsun, xata baladan uzaq.
Adına layiq olan şeir, mahnılar yazaq,
Uca işin naminə, son döyüşə hazır ol.

"Adına layiq olan şeir, mahnılar yazaq" misrası ozan-aşıq şeir ənənəsindəki dastan yaratmanı, dastan yaratmağa stimul verən ən həlledici amili işarələyir. Sənətkarın Vətənin müdafiəsi naminə sonsuz şücaətlər göstərən, döyüşdən qələbə ilə qayıdan qəhrəmanları vəsf etmək, mahiyyətcə isə, dastan qəhrəmanına çevirmək ruhuna kökləndiyini işarələyir. Kitabda sənətkarın bu məqama və məramə köklədiyini işarələyən misralar da yer alır:

Türkün ruhu haralarda dolaşır -
Deyənlərə uca səsdən oxuyun.
Ləvin-ləvin səhifələr açılır,
Tükənməyən dürlü dastan oxuyun.

"Aprel döyüşləri, Aprel müharibəsi və Dördgünlük müharibə" adı ilə tariximizi şərəfləndirən bu hərbi münaqişədə "döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur" (Bax: Açıq ensiklopediya: Aprel döyüşləri). Bu qələbələr böyük Zəfər yolunun başlanğıcı idi.

"Son döyüşə hazır ol" şeiri 2016-cı ilin aprelində, uzun illərin məğlubiyyət acısından sonra əldə etdiyimiz qələbədən ruh alaraq yazılmışdır.

"Oxuyun" şeiri də Aprel döyüşlərində Azərbaycan ordusunun qazandığı zəfərə köklənən şair ruhunun poetik əksidir. Sənətkarın ordumuzun yeni-yeni qələbələrə imza atacağına inamından yaranan nikbin ovqatı işarələyir. Sanki o, bu hadisələrdə yeni bir dastan süjetinin başlanğıcını görür, bu başlanğıcı poetik sözə çevirib Azərbaycan əsgərinin ruhuna hopdurmağı şeirin-sənətin, sənətkarın prioritet vəzifəsi kimi dərk və bəyan edir:

*(Davamı 13-cü səhifədə)*

# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)

*(Əvvəli 7-ci səhifədə)*

Ləvin-ləvin səhifələr açılır,
Tükənməyən dürlü dastan oxuyun.

Yeni bir dastanın "başlanğıcı" bizi türkün tarixi qəhrəmanlıq dastanlarının ruhuna qovuşdurur. "Dədə Qorqud"da, "Koroğlu"da, "Alpamış", "Manas"da qorunan türkün qəhrəmanlıq tarixini bu günümüzə daşıyır. Azərbaycan gəncliyini xalqımızın qəhrəmanlıq tarixi ilə tanış edir, bu tarixdən ibrət almağa səsləyir. Aşağıdakı misralar həmin səslənişin poetik əksidir:

"Dədə Qorqud" boylarından danışın,
"Koroğlu"nun qollarından danışın.
"Alpamış"ın soylarından danışın,
Nə yazılıb bay Manasdan oxuyun.

Q.Bayramov yazır ki, "onun təfəkkür palitrası yetərincə polifunksionaldır" (M.Nağıqızı. Onun daş nağılı. s.377). Dəqiq müşahidədir. Ona görə dəqiqdir ki, bu nəzəri qənaəti Mahirə şeirinin az qala hər misrası, bəndinə aid etmək olar. "Oxuyun" şeirində türkün qəhrəmanlıq dastanlarını poetik fikrin arsenalına daxil etmək ancaq tariximizin qəhrəmanlıq ruhunu xatırlatmağa, bu tarixdən ibrət almağa səslənişə xidmət etmir. Yuxarıdakı misralar və bütövlükdə Mahirə şeirinin dastanlarımıza xas qəhrəmanlıq ruhuna köklənməsi onları da yeni yaranmaqda olan dastanın tərkib hissəsinə çevirir. Bu hal postmodernizmdə intertekstuallıq adlanır. Qayıdaq M.Baxtinin Dostoyevskinin roman poetikasında kəşf etdiyi bir üsulun üzərinə. Tədqiqatçı vurğuladığı bir cəhəti - "onun əsərlərindəki mətnlərin ondan əvvəl və onunla eyni zamanda mövcud olan mətnlərlə dialoqa girməsi" məsələsini bir daha xatırlayaq. Mahirənin şərti olaraq "hərbi-vətənpərvərlik mövzusu"nda yazılmış şeirləri kimi vurğulanan əsərləri biz çağdaş dastan yaradıcılığının şeir hissəsi hesab etmişdik. Mahirənin bizə təqdim etdiyi bədii mətni yox, bu mətn vasitəsilə bizim düşüncəmizdə formalaşan əsəri-dastanı "Dədə Qorqud", "Koroğlu" mətni ilə bir yerdə qavrayırıq. Ən azı yeni yaranan dastanın bizə təqdim olunan nəzm hissəsi "Dədə Qorqud" və "Koroğlu"nun nəsr hissəsi ilə (elə həm də nəzm hissəsi ilə) qovuşub bütövləşir. Bu cür düşüncə formatını uydurma, sırf fantaziya məhsulu, sadəcə yozum hesab edənlər də tapıla bilər, elmi əsasının olmadığını da düşünmək olar. Ancaq belə elmi əsas var.

Postmodernizm zamanında yazılmış əsərə postmodernizmin nəzəri postulatları ilə yanaşmağa çalışaq və belə bir sual qoyaq. Postmodernizm nə üçün sənətkarı bədii əsərin yox, bədii mətnin müəllifi hesab edir? Çünki, "Postmodernist konsepsiyaya görə, yaradıcı demiurq statusundan məhrum olmuş sənətkar əsər yox, mətn yaradır...Əslində hər bir oxucu mətnin yaradıcısı statusu qazanır. Məhz buna görə də "hər bir mətn daim (oxucu tərəfindən - Q.Q.) burada və indi yazılır" (R.Bart)" (Q.Quliyev. Göstərilən məqaləsi).

Bu nəzəri tezis mətn müəllifliyində sənətkarı, əsər müəllifliyində isə oxucunu görür. Məntiq isə budur ki, hər bir oxucu bədii mətni öz intellektual səviyyəsinin çərçivəsində görür və dərk edir. Sənətkarın yaratdığı mətn fərqli səviyyələrə məxsus oxuculara fərqli həqiqətlər çatdırır. "Salam olsun" kitabında toplanan əsərləri bir dastan mətni kimi oxumaq tendensiyası fərqli oxucu idrakının variasiyalarından biri kimi qəbul edilə bilər. Ancaq, toplunun dastan kimi oxunması üçün ona daha bir postmodernist baxışla yanaşmaq lazım gəlir. Postmodernizmdə bədii mətnə dekonstruksiya prinsipi ilə yanaşma zərurətindən və onu destruksiya (sökmə) və konstruksiya (quraşdırma) əsasında idrak ehtiyacından söhbət gedir. Mahirənin "Salam olsun" kitabında bizə təqdim etdiyi mətn, ən azı, zaman baxımından qarışıqdır. Ancaq mətnə dekonstruksiya prinsipi ilə yanaşıb, onu söküb, yenidən yığmaq olar. Kitabda toplanan şeirləri yazıldığı zamanın və inikas etdiyi hadisələrin ardıcıllığı ilə düzsək, bütövlükdə topluda-dastanda Azərbaycan xalqının taleyüklü tarixinin iki zaman kəsiyinin işarələndiyini, hadisələrin, təsvir və təhlillərin zaman ardıcıllığını dəqiq təsəvvür etmək mümkündür. Bu iki zaman kəsiyi müstəqillik ərəfəsi və dövründən, 20 faiz torpaqlarımızı itirdiyimiz zamandan başlayır, II Qarabağ müharibəsində əldə etdiyimiz zəfər tarixi ilə bitir. Buna görə, vahid bir zamanın poetik ifadəsi kimi də dərk olunur. Ancaq əsərin ayrı-ayrı parçalarında müəllif ovqatı başqadır, dərdin baş alıb getdiyi parçalar da var, sevinc yaşlarının misraların ruhuna hopduğu parçalar da. Bütün hallarda, bu parçalarda dərin bir tarixilik duyğusu var və bu tarixilikdən kənarda şeirlərin yazılmasına səbəb olan şair ovqatını başa düşmək mümkün deyil.

Topluda məğlubiyyət acısı ilə yaşadığımız bir qərinəlik zamanın şeirləri ilə II Qarabağ savaşında əldə etdiyimiz qələbənin təəssüratlarını ifadə edən şeirləri fərqli mərhələlərin poetik məhsulları kimi ayırmaq lazımdır. Ancaq topluda torpaq itgilərinin yaratdığı dərdli ovqatla torpaqlarımızın geri qayıdacağına əsaslı ümid yaradan, bir gözü ilə ağlayan, bir gözü ilə gülən şair əhvali-ruhiyyəsinin poetik tərcümanı olan şeirlər də var ki, bunlar birinci zaman kəsiyində yer alan şeirləri iki yarımmərhələyə ayıraraq dərk etmək zərurəti yaradır.

İkinci yarımmərhələ - 1916-cı ilin Aprel döyüşlərindən başlayıb 44 günlük müharibə gününə qədər davam edən zamanın şeirləridir.

Dastan poetikası nöqteyi-nəzərindən qiymətləndirsək, birinci mərhələni birinci, 44 günlük müharibə günlərindən bəhs edən mərhələni ikinci boy adlandırmaq olar. Və hətta, fikrimizcə, sanki "Dədə Qorqud" dastanının boylarında rast gəldiyimiz igidlik göstərmiş qəhrəmanın şəninə söz qoşub, saz çalan, qəhrəmana ad verən Dədə Qorqud ruhunu xatırladan, cahanşumul Qələbəni Dədəm Qorqud sayağı vəsf edən parçalara da rast gəlirik. Və nəhayət, dastanın, yaxud konkret bir boyun sonunu işarələyən ozanın "tapşırması" kimi oxunan "Tapşırım", "Tapşırar" şeirləri. Daha sonra isə sözün yüzə-yüz mənasında ozan türküləri kimi toplunun sonuna salınmış Vətəni tərənnüm, vəsf edən silsilə bayatılar.